

**Hikmət Babaoğlu**

**siyasi elmlər doktoru, professor**

# Türk tarixi və mifoloji dünyagörüşündə atlar

**əvvəli ötən sayımızda**

***Van-ban dəyişməsi isə eynən mən-bən dəyişməsi kimi oğuz-qıpçaq ləhcələrinin xüsusiyyətlərindən irəli gəlir. Beləliklə, İrə-van, Ər-van yəniordugah, ərlərin məskəni, Şirvan, yəniŞor-van – qıpçaq türklərinin bir boyu olan şor, yaxud şor (çor) tayfalarının məskənidir. "Qal" isə feildir yəni, Müqəddəs Odun, Qor-Kutun yaşadığı, qaldığı məkandır. Göründüyü kimi, Tur Heyerdalın Skandinaviya xalqlarının əcdadlarının Azərbaycanla bağlı olması iddiası bu nümunədə də öz təsdiqini tapır. Elə vikinqlər də eyni mənbəyə dayanır. Çünki onlar gəmiyə dəniz atı deyirdilər. Ona görə ki, vikinqlər üçün dənizi görənədək yeganə nəqliyyat vasitəsi at idi. Gəmi də su nəqliyyatı olduğu üçün ona da milli təfəkkürlərinə uyğun olaraq dəniz atı deyirdilər.***

Ərəb əfsanəsinə görəisə, atları Allah özü yaradıb. Allah Cənub küləyinə deyirg "Mən səndən sənin kimi sürətli olan Mənim düşmənlərimi məhv edə biləcək, Mənim müqəddəslərimi (seçilmişlərimi) isə şöhrətləndirəcək bir canlı varlıq yaradıram."Cənub küləyi dərhal itaət göstərir və onun sıxlaşaraq at formasını alan şəklindən canlı at yaranır. Görünür, atların küləklə, yellə müqayisə olunması, atların yel qanadlı varlıqlar adlandırılması fikrinin alt məntiqini də elə bu əfsanədə əksini tapmış məzmun təşkil edir. Məsələ ondadır ki, bu düşüncə İslamdan əvvəl bizim də təfəkkürümüzdə mövcud olmaqla atlarla bağlı müqayisə və bənzətmələrimizin əsas xətlərindən birini təşkil edir.

### Orxon-Yenisey abidələrində atlar

***Atlarla bağlı, yaxud türk tarixində atların yeri və rolu ilə bağlı ən maraqlı yazılı mənbələrdən biri də Orxon-Yenisey abidələridir. Hər nə qədər daş üzərində yazı yazmaq çətin olsa da, hər nə qədər mətnləri maksimum qısa tərtib etmək lazım gəlsə də, hər nə qədər ən vacib məlumatları yazmaq tələb olunsa da, əcdadlarımız bu çətin şərtlər içərisində bizə atlarla bağlı məlumat verməkdə xəsislik etməyiblər. Bu onu göstərir ki, bütün türk tarixində olduğu kimi, VI-VII əsrlərdə də at göytürklərin həyatında, hərb tarixində olduqca ciddi, bəlkə də həlledici rollardan birini oynayırdı. Elə Orxon-Yenisey abidələrində də atlar, əsasən, döyüş səhnələri ilə bağlı epizodlarda xatırlanır...Və adlarını daş kitabələrə döydürmək haqqı əldə edirlər!..***

...Beləliklə, türk şahzadəsi İltəris Xaqanın oğlu, Bilgə Xaqanın kiçik qardaşı Kül Tigin (şahzadə)in (685-731) şərəfinə 731-ci ildə qoyulmuş Kül Tigin abidəsində bu cəsur türk şahzadəsinin altı tayfalı Soğdayla savaşını əks etdirən yazıda deyilir.

"Altı tayfalı Soğdaya qarşı qoşun çəkdik, tabe etdik. Tabğac Un Tutuk ("tutuk" hərbi rütbə bildirir H.B.) əlli min qoşunla gəldi, döyüşdükg Kül Tigin (21 yaşında olardı) piyada hücum etdi. Onu yaraqlı tutaraq eləcə də Xaqana təqdim etdi, o qoşunu məhv etdik. İyirmi bir yaşında Çaçe səninlə döyüşdük. İlk dəfə Tadıkın Çorin Boz atını minib hücum etdi, o at orada öldü(Ən İlgi Tadıkın Çorin Boz atığ binib təgdi, ol at anta ölti) İkinci dəfə İşbara Yantarın boz atını minib hücum etdi, o at orada öldü. Üçüncü dəfə Yəgin Silig bəyin yəhərli kəhər atını minib hücum etdi. O at orada öldü" (üçüncü Yəgin Silik bəgin Gedimlik, yəni yəhərli torik, yəni dor, doru atını binib təgdi, ol at anta ölti) Burada bildirilir ki, Kül Tiginin yarağına, zirehinə yüzdən artıq ox dəymişdi. Beləliklə, bu döyüşdən qalib ayrılan göytürklər sonra qırğızlara qarşı vuruşmalı olurlar. Bu döyüşdə artıq 26 yaşı olan qəhrəman Kül Tigin Bayırkunun ağ ayğırını minib hücum edir. Döyüşdə ayğırın bud sümüyü sınır (Kül Tigin Bayırkun ak adğırığ binib oplay təgdi ol təgdügdə Bayırkunun ak adğırır udlıkın sıyu urtı). Buna baxmayaraq, qırğız xaqanı da məğlub edilir. Bundan başqa, müxtəlif döyüşlərdə Kül Tigin Başğun Boz atı, Alp Salçanın Ak atı, Azmanın ak atı və d. atlar minir. Elə buradaca maraqlı bir detala diqqət çəkməyi də özümüzə borc bilirik. Çünki bu fakt birbaşa bizim, azərbaycanlıların tarixi ilə bağlıdır. Kül Tigin Alp Salçanın ağ atını minib Karluku (karluklar da türk tayfalarıdır. Bugünkü özbək xalqının etnogenezini təşkil edən boylardan biridir) öldürür. Bu zaman, görünür, karlukların müttəfiqləri olduğu üçün az xalqı yağı (düşmən) olur(Az Bodun yağı boltı). Burada bəhs edilən azlar birbaşa bizim əcdadlarımız olan Azərbaycan türkləridir. Görünür, Göytürk imperiyası qurularkən azlar orada qurucu ünsürlərdən biri olublar. Ancaq məlum olmayan səbəblərə görə Karluk öldürüldükdən sonra digər qurucu həm də, dominant qurucu hesab ediləcək göytürklərlə düşmən olurlar. Ancaq bu çox çəkmir. Bu hərbi-siyasi gərginliyi yaradan az eltəpəri (başçısı) Qaragöl adlandırılan yerdə öldürüldükdən sonra azlar yenidən göytürklərə qaynayıb-qarışırlar. Baxmayaraq ki, abidədə "az xalqı orada yox oldu."(az bodun anta yokbolti) yazılır. Bu, mümkün olan şey deyil. Xalq necə yox ola bilər? Müəllif burada iki şeyi nəzərdə tuta bilər:ya azlar çıxıb getdilər, ya da onlarla qaynayıb-qarışdılar. Fikrimizcə, ikinci versiya daha doğrudur.

Çünkisonrakı mətnlərdə azlar və onların atları yenidən xatırlanır. Ancaq başqa bir yerdə az-larla ğuz-ların qərbə köç etdikləri də bildirilir. Burada yenə az-lar biz, ğuz-lar isə oğuzlardır, yəni indiki Türkiyə türk- Bundan sonra Kül Tigin Azmanın Ak atı və Azın Yağız atını ("yağız" torpaq rəngi qara at) minərək bu dəfə oğuzlarla savaşır(oğuz birlə sünüşdimiz). Onları da məğlub edir. ***Ancaq oğuzlarla savaş bunula bitmir. Mağa kurqanında qışlayan göytürklər yazda yenidən onlara hücum edirlər. Nədənsə bu dəfə Kül Tigini evi, ordugahı müdafiə etmək üçün arxa cəbhədə qoyurlar(Mağa kurgan qışlap, yazına oğuzğaru su taşıkdımız. Kül Tikin evik başlayu kıtımız. Oğuz yağı orduğ basdı. Kül Tikin Öğsüz aralı akın binip tokuz ərin sancdı, orduğ birmədi). Elə hücum edən oğuzlarla savaşda Öğsüz Ağ (yetim ağ) atını minən Kül Tigin doqquz savaşçını öldürür, ancaq ordanı vermir. Belə çıxır ki, sonradan Kül Tigin məhz bu döyüşdə aldığı yaralardan ölür. Ya da Kül Tiginin ordugahda qalması onun yaralı olması ilə əlaqədar imiş. Buna baxmayaraq, doqquz əri öldürə bilir.***

Beləliklə, əfsanəvi türk qəhrəman olan Kül Tigin 731-ci ildə vəfat edir. 732-ci il avqust ayının 27-də isə onun şərəfinə yazılmış abidə üzərində yazı işləri tamamlanır. Bu qəhrəmanın ruhu qarşısında baş əyərək qısaca olaraq onun atlarından danışaq.

Əvvəla, qeyd etmək lazımdır ki, Orxon-Yenisey abidələrində Kül Tiginin şərəfinə ucaldılmış abidədən başqa, demək olar ki, heç bir abidədə atlar haqqında bu qədər geniş məlumat verilmir. Həmin abidələrdə atlardan süvarilərədək ümumi olaraq danışılır. Kül Tiginin isə az qala hər döyüşdə mindiyi atın adı verilir. Bu, azmış kimi, atın yaralanması, yaxud elə döyüş meydanında ölməsi də öz əksini tapır. At Orxon-Yenisey daş kitabələrinin baş qəhrəmanı olan Kül Tiginlə az qala bərabərləşdirilir. Kül Tiginin ən azı səkkiz atının adı çəkilir. Ancaq bununla belə, heç də bütün döyüşlərdə atla bağlı məlumat verilmir. Fikrimizcə, abidələrdə adı çəkilən və döyüş səhnələrinin hər birində iştirak edən atlar mütləq bir şəkildə sahibinin, yəni Kül Tiginin qalibiyyətinə yardım etmiş atlardır. Ona görə onların adı da qəhrəmanın adı ilə bərabər kitabəyə salınmışdır. Ancaq belə məlum olur ki, bu atların heç də hamısı Kül Tiginin öz atları deyil. Məsələn, Alp Salçanın Ak atı, yaxud Azın Dorık atı. Buradan belə çıxır ki, həmin döyüşlərdə Kül Tiginin öz atları heç bir hünər göstərə bilmədən öldürülür. Bundan sonra minilən yuxarıda adları çəkilən atlar isə hünərdə sahibinə layiq olurlar və beləliklə dəadlarını əbədi kitabələrə həkk etdirirlər!



***Kül Tiginin ən azı səkkiz atının adı çəkilir. Ancaq bununla belə, heç də bütün döyüşlərdə atla bağlı məlumat verilmir. Fikrimizcə, abidələrdə adı çəkilən və döyüş səhnələrinin hər birində iştirak edən atlar mütləq bir şəkildə sahibinin, yəniKül Tiginin qalibiyyətinə yardım etmiş atlardır. Ona görə onların adı da qəhrəmanın adı ilə bərabər kitabəyə salınmışdır. Ancaq belə məlum olur ki, bu atların heç də hamısı Kül Tiginin öz atları deyil. Məsələn, Alp Salçanın Ak atı, yaxud Azın Dorık atı. Buradan belə çıxır ki, həmin döyüşlərdə Kül Tiginin öz atları heç bir hünər göstərə bilmədən öldürülür. Bundan sonra minilən yuxarıda adları çəkilən atlar isə hünərdə sahibinə layiq olurlar və beləliklə dəadlarını əbədi kitabələrə həkk etdirirlər!***

### Müdrik Tonyukuk azərbaycanlı idi

***Başqa bir məsələ isəaz-ların azərbaycanlı olmaları ilə bağlı iddialarımızın Tonyukuk abidəsində öz təsdiqini tapmasıdır. Dörd türk xaqanı – İltəris, İnal, Kapağan və Bilgə xaqanın vəziri olmuş Tonyukuk dövlətçilik qarşısında xidmətlərinə görə daş kitabələrə adını yazdırmışdır. O, özü haqqında belə deyir:"Özüm az, yirim..."burada hərflər oxunmaz hala düşüb(kim bilir, bəlkə də azərbaycanlılarla bağlı məlumat verildiyi üçün qəsdən pozulub). Elə bu etiraf kifayətdir ki, daş kitabədə"az" sözünün başqa mənada yox, elə etnik kimlik mənasında işləndiyini dəqiqləşdirək. Ona görə dədüşünürük ki, bu məsələ tarixçilərimiz tərəfindən yaxşıca tədqiq edilməlidir.*** Bundan başqa, Çin əsirliyindən qaçaraq xalqını düşmənə qarşı səfərbər etmək üçün yola çıxan Tonyukuk bələdçi axtararkən deyir ki, çöllü azlardan bir adam tapdım. (çölgi az ərik bultım), az dilini yaxşı bildiyi üçün həmin azdan ordugahın yerini öyrənir. Bu zaman Tonyukuk hələ vəzir deyildi. Döyüşdə çinlilərə əsir düşmüş, xoşbəxt təsadüf üzündən qaçıb ölkəsinə gəlmişdi. Ona görə dəordugahın yerini bilmirdi. Belə çıxır ki, o dövrdə azlar say etibarilə heç də azsaylı olmayıblar və Göytürk imperiyasının ən müxtəlif təbəqələrində təmsil olunublar. Elə müdrik vəzir Tonyukuk də az idi. Yəni azərbaycanlı idi! Az-lar həm də Az-iya yəni Asiya qitəsinə öz adlarını verməyi bacaran qəhrəman superetnosdur! Onların vətəninə gəldikdə isə, yaşadıqları yer Bay–Tay–Qan kimi göstərilir. Yəni tayqa meşələrinin "bay" – zəngin yerləri. Beləliklə, Azərbaycan adının ilkin versiyası ortaya çıxır: Az-Ər–Bay–Tayqan yəni Azərbaycan. Məhz ərəblər Azərbaycandan bəhs edərkən ona görə ölkəmizi Az-Ər-Bay-qan adlandırıdılar!

***"Az – sözü isə həm də mahir, peşəkar deməkdir. Hazırda ruslar bu sözü elə bizim türkcənin arxaik mənasında işlədirlər. Məsələn, aspilot və s.***

**(davamı gələn sayımızda)**